*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 434-440*

https://doi.org/10.62837/2025.7.434

**ZAUR YƏDULLA OĞLU AĞAZADƏ**
**Lənkəran Dövlət Universiteti , doktorant**
z.ağazade@mail.ru

# VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞMASINDA YAZILI ƏDƏBİ NÜMUNƏLƏRİN ROLU

**Açar sözlər: vətənpərvərlik tərbiyəsi , klassik ədəbiyyat, müasir ədəbi proses, kiçikyaşlı məktəblilər**

**Xülasə**

Vətənpərvərlik ən ali hiss,ən yüksək əxlaqi keyfiyyətdir. Təsadüfi deyil ki, bu ifadənin məna yükü olduqca böyükdür.Vətənpərvər olmayan insan üçün həyat yalnız bəzəkdən,düzəkdən başlayır.Vətənpərvər insan isə şəxsiyyətdir,şüurlu vətəndaşdır. O, öz ocağına,ailəsinə,qohum-qonşusuna,kəndinə,şəhərinə neçə sevgi ilə yanaşırsa,onu vətənin bir parçası hesab edirsə,bütövlükdə vətəninə,ölkəsinə də sevgi ilə yanaşır, uğrunda fədəkarlıqlar edir.Lakin bu yüksək insani keyfiyyət birdən -birə baş vermir,ailədə, məktəbdə bu proses davam və inkişaf etdirilir.Ancaq bir məlum həqiqət də vardır ki,insanlarda,eləcə də kiçikyaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsinin formalaşmasında xalq ədəbiyyatının,xüsusən yazılı ədəbiyyatımızın müstəsna rolu vardır.Azərbaycan yazıçılarının X qurultayında Ümummilli liderimiz Heydər Əliyev məhz bu cəhəti nəzərə alaraq demişdir;"Bilirsiniz,bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda,millətimizdə daim milli hissiyatları oyatmağa çalışmışlar.Milli özünədərk,milli oyanış,dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki,onlar açıq –açığına xalqımıza milli dirçəliş,oyanış hissiyatlarını çatdırıbdır.Bəxtiyar Vahabzadənin,Xəlil Rzanın,başqalarının əsərləri.Amma digər əsərlər isə dolayısı ilə ,ayrı-ayrı fikirlərə millətimizdə vətəni sevmək,vətənə sadiq olmaq,Azərbaycanı sevmək azərbaycanlı olmaq hissiyatlarını yaradıblar"(4,435-436)Məqalədə bu sözlərin işığında klassik və cağdaş ədəbi düşüncədə vətənpərvərlik tərbiyəsindən və onun kiçikyaşlı məktəblilərin formalaşmasında müstəsna rolundan danışılır.

**Zaur Yadulla oglu Agazade**

## THE ROLE OF WRITTEN LITERARY SAMPLES IN THE FORMATION OF PATRIOTIC EDUCATION

**Keywords:** Patriotic education, classical literature, modern literary process, young schoolchildren

**Summary**

Patriotism is the highest feeling and the highest moral quality. It is no coincidence that this expression carries a very significant meaning. For a person who is not patriotic, life begins only with adornment and superficiality. A patriotic person is a personality, a conscious citizen. Just as he loves his hearth, family, relatives, neighbors, village, and city, considering them a part of the homeland, he also loves his country as a whole and makes sacrifices for it. However, this high human quality does not appear suddenly; it is nurtured and developed in the family and school. Yet, there is a known truth that in the formation of patriotic education in people, especially young children, folk literature, and especially our written literature, plays an exceptional role. At the 10th Congress of Azerbaijani Writers, our national leader Heydar Aliyev specifically emphasized this point, stating: "You know, the greatest service of our literature to our people is that our poets and writers have always tried through their works to awaken national feelings in Azerbaijan, our people, and nation. National self-awareness, national revival, and renaissance process pass primarily through literature. There are some works that directly convey national revival and awakening sentiments to our people. The works of Bakhtiyar Vahabzadeh, Khalil Rza, and others are among them. But other works have indirectly created feelings of loving the homeland, being loyal to the homeland, loving Azerbaijan, and being Azerbaijani in our nation." (4, 435-436) This article discusses the role of patriotic education in classical and contemporary literary thought and its exceptional role in the formation of young schoolchildren.

**Заур Ядулла оглы Агазаде**

## РОЛЬ ПИСЬМЕННЫХ ЛИТЕРАТУРНЫХ ОБРАЗЦОВ В ФОРМИРОВАНИИ ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ

**Ключевые слова:** патриотическое воспитание, классическая литература, современный литературный процесс, младшие школьники

### Резуме

Патриотизм — это высшее чувство и высшее моральное качество. Не случайно это выражение несет в себе очень большой смысл. Для человека, не обладающего патриотизмом, жизнь начинается лишь с внешнего блеска и украшения. Патриот — это личность, сознательный гражданин. Как он с любовью относится к своему очагу, семье, родственникам, соседям, селу и городу, считая их частью родины, так он относится с любовью к своей стране в целом и готов ради нее на жертвы. Однако это высокое человеческое качество не возникает внезапно; оно воспитывается и развивается в семье и школе. Известно также, что в формировании патриотического воспитания, особенно у младших детей, исключительную роль играет народная литература, особенно

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 434-440*

наша письменная литература. На X съезде азербайджанских писателей наш национальный лидер Гейдар Алиев особо отметил этот момент, сказав: «Вы знаете, самая большая заслуга нашей литературы перед народом состоит в том, что наши поэты и писатели своими произведениями всегда стремились пробудить в Азербайджане, в нашем народе и нации национальные чувства. Национальное самосознание, национальное пробуждение, процесс возрождения проходят прежде всего через литературу. Есть произведения, которые прямо передают нашему народу национальное возрождение и пробуждение. Произведения Бахтияра Вахабзаде, Халила Рзы и других. Но другие произведения косвенно создавали у нашего народа чувства любви к родине, верности родине, любви к Азербайджану, азербайджанской принадлежности.» (4, 435-436) В статье рассматривается роль патриотического воспитания в классической и современной литературной мысли и его исключительная роль в формировании младших школьников.

**Giriş**

Ümümtəhsil məktəblərində I siniflərdən başlayaraq bütün dərsliklərin əvvəlində musiqisi ölməz bəstəkar Üzeyir Hacıbəylının,sözləri unudulmaz Əhməd Cavada məxsus olan Azərbaycan Respublikasının Dövlət Himnini mətni təqdim olunur . Himnimiz aşağıdakı misralarla başlayır:

Azərbaycan! Azərbaycan!
Ey qəhraman övladın şanlı Vətəni! (2)

Məktəbə sinif otaqlarına ayaq qoyduğu ilk gündən məktəblilər dinlədiyi,oxuduğu dövlət himnimizi hər yerdə, həm dərs prosesində, həm də müxtəlif tədbirlərdə ayaq üstə dinləyir , böyük şövqlə oxuyur, alqışla qarşılayır.Səbəb himndə xalqın vətən,yurd sevgisinin yüksək səviyyədə ifadə olunmasıdır.Himndə deyildiyi kimi vətəndaş olmaq vətəni sevməkdən,vətəni sevmək onu qorumaqdan,yolunda fədakarlıq göstərməkdən,şəhidlik zirvəsinə yüksəlməkdən keçir.Vətən mövzusu,vətən duyğusu həyatımızın mənasını təşkil edir.Təsədüfi deyildir ki,vətənpərvərlik mövzusu həm klassik,həm də müasir ədəbi prosesdə yaradıcı simaların əsərlərinin ana xəttini təşkil edir.Bu cəhətdən sevimli şairlərimizdən olan Mikail Müşviqin “Bəxtiyar”şeirində aşağıdakı misralar olduqca xarakterikdir:

Həyatdan doymayasn,işdən doymayan,
Əfsanə sözlərə məhəl qoymayan,
Kölnümü,gözünü verib işinə ,
Baxıb həyatının yüksəlişinə,
Xalqilə titrəyən ,xalqilə gülən,
Vətənçin yaşıyan,vətənçin ölən,
Səmimi bir insan nə bəxtiyardır! (7,99)

Vətənsiz,yurdsuz bir insan qanadsız quş kimidir.Odur ki,ümumtəhsil məktəblərində ibtidai siniflərdən başlayaraq həm təlim prosesində,həm də dərsdənkənar və məktəbdənkənar tədbirlər və məşğələlər zamanı bədii ədəbiyyat nümunələrindən geniş istifadə olunur.Məqsəd həmin ədəbi nümunələr əsasında şagirdlərlə vətənpərvərlik tərbiyəsi üzrə işin sistemli təşkilini həyata keçirtməkdir.Yaşadığımız,taleyüklü hadisələrin baş verdiyi bir zaman kəsiyində mövzunun bu istiqamətdə araşdırılması xususi aktuallıq kəsb edir.

**Əsas hissə**

Xalq ədəbiyyatı nümunələrində olduğu kimi,çağdaş əbəbi düşüncədə də gənc nəslin vətənpərvərlik tərbiyəsi əsas yerlərdən birini tutur.Yurd yerindən ayrı düşmək şəxsi faciə kimi qəbul olunmuş, qərib-qürbətlik hisssinin arxasında vətənpərvərlik, yurd yerlərinə, ana vətənə sonsuz sevginin ifadəsinin aydın cizgiləri görünməkdədir. Bu münasibətlə bir çox şairin, xüsusən XII əsrdə yaşamış görkəmli qəsidə ustası X.Şirvaninin,XVI əsr poeziyasının qəzəl ustadı Fizulinin, eləcə də XVIII əsrdə yaşayıb-yaratmış M.V.Vidadinin şəxsi həyatından, zəngin yaradıcılığından misallar çəkmək olar. X.Şirvani doğma vətənində Şirvanda dustağa çevrilir, köç etməyə məcbur olur. Vətən, yurd yanğısını şeirində belə ifadə edir:

Xaqani qürbətə basalı ayaq,
Olmuş tək qapılı bir evdə dustaq [6, s. 251].

Şair uzaqda deyil, vətənin bir bucağından digər qütbünə Təbrizə gedərək orada yurd salmışdır. Amma ana vətəni,Şirvanın Şamaxının sevgisi onu rahat buraxmır:

Vətən həsrətilə töküb göz yaşı,
“Ah, vətən !” deyirəm, mən hər söz başı.
Şamaxı ! Ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum.
İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana
Ümidim, pənahım Təbrizdir, Təbriz
O şəhər də mənə doğmadır əziz.[6, s. 365-366].

Bədii nümunələrində kövrəklik, bayatı həzinliyi duyulan, XVIII əsrin görkəmli nəğməkar şairi M.P.Vaqifin yaxın dostu, sirdaşı M.V.Vidadi də qəriblik-qürbətlik acısını dadmış, vətəndən ayrı düşən insanların portetini bir çox şeirlərində yaratmağa müvəffəq olmuşdur:

Dəli könül, gəl əylənmə qürbətdə,
Bir gün olur vətən deyib, ağlarsan.
Yadlar ilə ömür çürür həsrətdə,
Bir gün olur vətən deyib ağlasan[9,57 ].

Qeyd etmək lazımdır ki, şifahi xalq ədəbiyyatında bayatılar, yazılı ədəbiyyatımızda yanıqlı rübailər aşiqanə duyğuları ifadə etdiyi kimi, vətən

məhəbbətini, qürbət həsrətini də ifadə etməkdə müstəsna əhəmiyyət daşıyır. Dörd misralı, yeddi hecalı bayatılarda tarix yaşanır, vətən, qürbət anlayışlarının poetik obrazı, səciyyəsi ortaya qoyulur. Xalq yazıçısı, görkəmli ədəbiyyat tənqidçisi M.Hüseyn vətənpərvərlik hissinin mahiyyətindən danışarkən bayatıları misal çəkərək demişdir: "Bayatıların əsas bir qismi vətən məhəbbətini əhatə edir. Bu gün vətən eşqilə bütün cəbhələrdə yorulmadan vuruşan və qalib gələn bir xalq üçün belə əsərlərin əhəmiyyəti xüsusilə böyükdür. Bayatının yaradıcıları bir tərəfdən düşmənin namərdliyindən, ikiüzlülüyündən qəzəb və nifrətlə bəhs etdiyi kimi, o biri tərəfdən, vətən obrazını özlərinə məxsus bir səmimiyyətlə yüksəldir, hətta romantikləşdirirlər. Burada da yenə müəlliflərin özlərinə məxsus bir dil işlətdiklərini görürük:

Əziziyəm, dilən gəz.
Bağda gülü dilən gəz.
Qürbətdə xan olunca,
Vətənində dilən gəz."[5, s.441].

Xalq şairi Səməd Vurğunun zəngin yaradıcılığı vətənə məhəbbətdən, sevgidəən yoğrulmuşdur. Görkəmli şair həm poetik örnəklərində, həm də elmi-tənqidi məqalələrində gənc nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunması barədə danışır, vətən sevgisini müxtəlif poetik janrlarda təbliğ etməyə çalışmışdır. Şairin xalq ədəbiyyatının təsirilə qələmə aldığı "Bülbül və bağban" adlı irihəcmli şeirində bülbülün vətən, torpaq, yurd sevgisi haqqında əfsanələr dolaşan Xan qızı Ağabəyim Ağanın vətən, yurd nisgilini, böyük, qarşılıqsız sevgisini yada salır. Əsərdə bülbülü xoş sözlərlə vətənindən, torpağından, gülündən, çiçəyindən ayırmaq istəyən hiyləgər atlıya bülbülün sərrast cavabları vətən sevgisinin hər nədən üstün olduğunu ifadə etməkdədir. Atlının yağlı vədlərinə bülbülün cavabını şair belə qələmə alır:

Qabardı tükləri şeyda bülbülün,
Dedi: Aşiqiyəm bu doğma gülün
Bu bağlar, bağçalar, ellər mənimdir,
Bunlar öz vətənim, öz vətənimdir.
Doğma oylağımdır, bu daş, bu torpaq,
Anamdır, yuvamdır bu gül, bu yarpaq [10, s.248].

Vətən, yurd sevgisi qəriblikdə daha güclü şəkildə duyulur, vətənin havası, vətən torpağı, suyu insanı böyük cazibəylə yurda dönməyə səsləyir. Azərbaycanın görkəmli maarifpərvər ədibi, şair və yazıçı Abbasqulu ağa Bakıxanov Qüdsinin bir çox şeirlərində, xüsusən onun "Xəyalın uçuşu" avtobioqrafik poemasında Avropaya səfər edən şairin qısa bir müddətdən sonra vətən üçün, doğma insanlardan ötrü darıxdığı, Qərblə müqayisədə Şərqin bir parçası olan vəteninin hər cəhətdən üstün bir məkan saydığını həsrətlə dilə gətirməsi buna əyani misaldır:

Məni yurddan ayrı saldı bu səfər,
Dostlarımdan ayrı qaldım bixəbər!

...Mən salıb yadə xoş günləri dostlar,
Ağlaram fəryad ilə qəlbimdə sonsuzdur kədər
Gər zaman bundan sonra gülsə mənə mənası yox,
Bir balıq çıxsa sudan, başqa nəvaziş nə edər? [3, s.282].

Göründüyü kimi doğma Əmsar kəndi ona Avropa şəhərlərindən daha doğma, daha sevimlidir. Əmsarda gördüyü abır-həya, ismət, vəfa kimi müqəddəs duyğular Avropada nəzərə çarpmır. Bu səbəbdəndir ki, şair özünü sudan çıxmış balıq sayır, narahat günlərini yaşayır, vətənə dönəcəyi anı intizarda gözləyir[3].

Təsədüfi deyildir ki,ədəbiyyatımızda daha çox qurbət şairi kimi tanınan,uzun illər vətəndən uzaqda olan XVII əsrin qüdrətli şairlərindən olan Saib Təbrizi daim vətən haqqında düşünmüş,özünü quşla müqaisə etmiş,vətəni tərk etməməyə çağırmışdır:

Qurbətə bağlama bel,tərk eləmə tez vətəni,
Hər quşun öz yuvası,hər kişinin öz vətəni(1,146)

Vətən insan övladının özünə yurd saldığı torpaqdır, evdir, sudur, daşdır, qayadır, dənizdir. İnsanın göz açıb gəzdiyi, seyr etdiyi, əkib-becərdiyi, suyunu içdiyi, çörəyini yediyi müqəddəs bir varlıq vardır ki, bu da adına fəxarətlə Vətəndir deyilir . Görkəmli romantik şair Abbas Səhhət "Vətən" şeirində bu müqəddəs duyğuya poetik ilhamla münasibət bildirmiş, vətənin anadan, ulularımızın uyuduğu, dualarımızın oxunduğu məzarlıqlardan, üzərində gəzdiyimiz, havasını udduğumuz torpaqdan, diyardan ibarət olduğunu bildirir və haqlı olaraq vətən sevgisindən məhrum olanların vicdandan xəbərsiz olmalarını dilə gətirir:

Vətəni sevməyən insan olmaz,
Olsa ol şəxsdə vicdan olmaz. [ 8,136]

Şeiri diqqətlə oxuduqda bir daha belə bir qənaət hasil edirik ki, A.Səhhətin ən gözəl dostu, həmdəmi hesab etdiyi Vətən anamızdır, üzərində boy atıb, sərvətindən qidalandığımız torpaqdır, ulularımızın uyuduqları müqəddəs məzaristandır. Fikirlərini poetik ustalıqla deyən şair vətən qarşısında hər birimizin borcunu yada salır, vətənin müqəddəsliyinə inam yaradır. Əslində vətən sevgisi hər bir vətən övladının qarşısında vəzifələr müəyyənləşdirir.Dərsliklərdə,dərs vəsaitlərində,eləcə də dərsdənkənar məşqələlərdə vətənpərvərlik motivləri ilə zəngin olan poetik nümunələr bu müqəddəs vəzifənin şagirdlərin vətənpərvərlik tərbiyəsinin sistemli şəkildə təşkilində əvəzsiz rol oynamaqdadır.

**Nəticə**

Araşdırmalardan çıxan konkret nəticə ondan ibarətdir ki,vətənpərvərlik tərbiyəsinin aşılanmasına xidmət edən ədəbi nümunələr şagirdlərin mənəvi zənginliyinə,layiqli vətəndaş olaraq yetişməyində əhəmiyyətli rola malikdir.İkinci əsas cəhət müəllimlərin yaradıcı fəaliyyətindən,dərs,məşğələrini şagirdlərin marağı üzərindən qurmasından,mövzunun həyatla,ölkəmizdə baş verən ictimai –siyasi

hadisələrlə əlaqələndirilməsindən çox asılıdır.Müşahidələr göstərir ki,bu sahədə yaranan ənənə müasir yaradıçı simalar tərəfindən davam və inkişaf edirilməkdədir.

### İstifadə olunmuş ədəbiyyat

1.Azərbaycan klassik ədəbiyyatından seçmələr,üç cilddə,Bakı,"Şərq-Qərb",2005

2.Aərbaycan dili, I sinif .Dərslik Ü.Nurullayeva ,N.Abdullayeva, N.Bayramova, İ.Xanaliyeva. Bakı :Çagdaş -2022

3.Bakıxanov A. Seçilmiş əsərlər,Bakı",Avrasiya Press"-2005

4. Əliyev H.Ə.Ədəbiyyatın yüksək borcu və amalı,Bakı: Təhsil,2002

5.Hüseyin M .Əsərləri,10 cilddə 9 cu cild ,Bakı Yazıçı, 1979

6.Xaqani Ş .Seçilmiş əsərləri,Bakı,Yazıçı,1987

7.Müşvüq M.Ədəbiyyat nəğməsi,Bakı Yazıçı 1978

8.Səhhət A Seçilmiş əsərləri Bakı: Lider Nəşriyat ,2005

9.Vidadi M.V .Seçilmiş əsərləri Bakı: Öndər Nəşriyyat ,2004

10.Vurğun S .Seçilmiş əsərləri Bakı: "Şərq –Qərb" –V cilddə,I cild, 2005

**Rəyçi: Piralı Behbudalı oğlu Əliyev p.e.d.prof .**